# Böyük Qayıdışın müjdəsi

**Bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib. Keçən il ölkə həyatında çox əlamətdar bir il olmuşdur. Əlbəttə ki, müharibədən sonra bizim əsas məqsədimiz azad edilmiş torpaqlarda bərpa işlərinə start vermək, eyni zamanda beynəlxalq müstəvidə yeni reallıqları qəbul etmək idi və hər iki istiqamət üzrə nəticələr göz qabağındadır: "Ağalı kəndinin sakinləri artıq bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq. Bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik". Bu barədə aprel ayının 12-də ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev nitqində deyib.**



***Bu il "Ağıllı kənd" istifadəyə veriləcək, Ağalı kəndinin sakinləri öz evlərində yaşayacaqlar***

30 ilə yaxın dövr ərzində işğal altında olan torpaqlarımız öz azadlığına qovuşduqdan sonra həmin ərazilərdə böyük quruculuq işlərinin aparılması geniş vüsət alıb. Ölkə başçısı cənab İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq düşmən əsarətindən qurtulmuş şəhər və rayonlarımızda bu gün irimiqyaslı tikinti layihələri həyata keçirilir, infrastruktur əsaslı şəkildə yenilənir. Dövlət başçısı bu məsələləri daim nəzarətdə saxlayır, həmin ərazilərə tez-tez səfərlər edir, göstəriş və tapşırıqlarını verir. İşğaldan azad olunmuş ərazilərdə işlər sürətlə davam edir. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda yüksək texnoloji əsaslarla şəhərsalmanın həyata keçirilməsi istiqamətində bir çox işlərə start verilib. Prezident İlham Əliyev tərəfindən Zəngilan rayonunun Ağalı kəndinin ərazisində "ağıllı kənd" layihəsinin təməli qoyulub və tikinti işləri davam etdirilir. Burada hər şeyin qurulmasına sıfırdan başlandığından nəticədə texnoloji qaydalara əməl edilən mükəmməl görünüş və infrastruktur ortaya çıxacaq. İlk mərhələdə Ağalı kəndində həyata keçiriləcək layihənin icrası 5 komponent üzrə aparılır. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələrini əhatə edəcək. "Ağıllı kənd" layihəsi gələcəkdə onun regionun digər ərazilərində də uğurla tətbiq edilməsinə zəmin yaradacaq.

"Ağıllı şəhər", "ağıllı kənd" layihələrinin həyata keçirilməsi dövrün tələbi, inkişafın göstəricisidir. İnsanın müasirləşən və yeniləşən həyat tərzini özündə ehtiva edən bu tipli layihələr bilavasitə beş nəcib məqsədə - normal, mənalı yaşayışa, müasir, elmi əsaslarla idarə olunan istehsala, nümunəvi sosial xidmətlərə, ağıllı, düşünülmüş kənd təsərrüfatına, alternativ enerji mənbələrindən istifadəyə əsaslanır. "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1, 2, 3-cü Ağalı kəndlərini əhatə edir. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunur, turizm infrastrukturu formalaşdırılır. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə obyektləri, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı alternativ enerji mənbələri ilə təmin edilir. Bu mütərəqqi layihələrin hazırlanması və həyata keçirilməsi bilavasitə Azərbaycan vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılmasına, onların xoşbəxt həyatına hesablanmışdır və ölkənin inkişafına, tanınmasına xidmət edir. 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən ilk "Ağıllı kənd" layihəsinin təməlqoyma mərasimində ölkə başçısı bildirib: "Ağalı kəndinin təməl daşı qoyulub. Bu, böyük qayıdışın birinci addımıdır. Biz müharibədən bir neçə ay keçəndən sonra artıq bu işlərə də start verdik. İnfrastruktur işləri öz qaydasında davam edir. İndi birinci "ağıllı kənd" layihəsi olan Ağalı kəndinin bərpasına start verilib. Ağalı kəndi, əslində, üç kənd - Birinci, İkinci, Üçüncü Ağalı kəndləri oktyabrın 28-də işğalçılardan azad edilib. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu və bu nümunəvi kənd olacaq. Çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir. Həm tikiləcək evlər, ictimai binalar, sosial obyektlər, həm də iş yerləri, əkin sahələri müəyyən edilib. Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirmək üçün imkanlar verəcək".

Qeyd etmək lazımdır ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə yaradılacaq "ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar olacaq. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılıb. Park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşıb. Fəvvarədə quraşdırılacaq memarlıq abidəsi hazırlıq mərhələsindədir. Burada müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait olacaq. Ötən ilin iyul ayında Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə bir qrup Ağalı kənd sakini öz doğma kəndlərinə gələrək burada görülən işlərlə tanış olublar. Azad edilmiş ərazilərdə salınan ilk "Ağıllı kənd"in sakinləri olmaqdan qürur hissi keçirən vətəndaşlar tezliklə kəndə qayıtmaq, burada həmişəlik yaşamaq niyyətində olduqlarını bildiriblər.

Onu da əlavə edək ki, burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Bundan əlavə, "Ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. "Ağıllı kənd"də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzində həyata keçiriləcək.

Burada İtaliyanın məşhur "Motsarella di buffalo" pendiri də istehsal olunacaq. İtaliya şirkətinin inşa edəcəyi ferma tam avadanlıqla təchiz ediləcək. Kənddə yüksəkkeyfiyyətli "motsarella", "burrata" və digər növ camış pendirlərinin istehsalının həyata keçirilməsi planlaşdırılır. Ferma qurulandan sonra əməkdaşlara pendir hazırlanması ilə bağlı təlimlər keçiriləcək. "Ağıllı kənd" təkcə kənd təsərrüfatı ilə bağlı deyil. Müasir şəhərsalma standartlarının tətbiqi, küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, su elektrik günəş paneli stansiyalarının quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın əsas komponentləri sırasındadır. Kənddə tikiləcək "Arximed" qurğusu karbon dioksid emissiyası sertifikatına malik olacaq və "ağıllı kənd"in bütün daxili elektrik enerjisi ehtiyacını ödəyəcək. Artıq qalan enerjini xaricə satmaq da olacaq. Türkiyə şirkətinin tikintisində iştirak etdiyi sistemdən çıxan isti su kənddəki evlərə və otelə ötürüləcək. Qurğu suyu oksigenləşdirəcək ki, bu da balıqlar və yaşıllıqlar üçün çox faydalıdır. Bu sistem günəş enerjisi və digər alternativ enerjilərə nisbətən artıq, yəni 24 saat işlədiyi üçün daha çox enerjini daha az güclə əldə etməyə imkan verəcək. Ağalı kəndində "Huawei" şirkətinin rəqəmsal texnologiyasından da istifadə olunacaq. "Huawei-Azərbaycan" şirkəti kəndi ən son texnologiyalarla təchiz edəcək. Burada Azərbaycanda ilk dəfə "Qiqabit AirPON" texnologiyasından istifadə olunacaq. Bu texnologiya fiberoptik xətlərin çəkilişini 10 kilometrdən 1 kilometrə qədər qısaldacaq. Beləliklə, şəbəkənin qurulması sürətlənəcək, xərclərə qənaət ediləcək. Quraşdırılacaq qurğu 100 meqabitə qədər kabelsiz internet paylayacaq. Eyni zamanda kənd sürətli internetlə də təmin olunacaq. Kənddə yaradılacaq "Ağıllı kənd təsərrüfatı" isə özündə kooperativ idarəetmə sistemini, müasir texnologiyalar əsasında qurulan tarla, bağ və fermaları, dronlar vasitəsilə idarəetmə və nəzarəti özündə ehtiva edir. "Ağıllı təsərrüfatlar" kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verəcək. Bu, bir pilot layihədir. Onun daha sonra digər işğaldan azad olunmuş rayonlarda da tətbiqi nəzərdə tutulur.

**Mustafa KAMAL,**
**"Respublika".**